# *Türkiyəli general:* "Qarabağ zəfəri haqsızlığa qarşı mübarizə aparan bütün ölkələrin ümidi oldu"

"Fikrimcə, dövlət idarəçiliyinin əsas amilləri məkan, vaxt və gücdür. Azərbaycan geosiyasi mövqeyi baxımından olduqca əhəmiyyətli yerdədir və istər "Şərq-Qərb", istərsə də "Şimal-Cənub" dəhlizləri üçün çox mühüm mövqe tutur. Təbii ki, bu mövqeyin yaratdığı üstünlüklərlə yanaşı, müəyyən risklər və məsuliyyətlər də var. Qafqazın regional lideri olaraq Azərbaycan bu gün xarici siyasətini istər ABŞ, Rusiya, Çin, istərsə də Afrika ölkələri olsun, dövlətlər arasında heç bir fərq qoymadan balanslaşdırılmış şəkildə aparır. Təbii ki, burada Şuşa Bəyannaməsi ilə möhürlənən Türkiyə-Azərbaycan münasibətləri, eləcə də Çin və Avropa İttifaqı ölkələri ilə strateji tərəfdaşlığa dair bəyannamələri qeyd etməmək olmaz. Azərbaycanın xarici siyasi xəttinin təməlləri arasında ölkələrin ərazi bütövlüyü, bəşəri və humanitar amillərə hörmət, eyni zamanda dostluq prinsipləri əsas yer tutur. Digər dövlətlərə bu prizmadan yanaşan bir ölkənin bunun qarşılığını tələb etməsi təbii haldır".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general, Türkiyənin Azərbaycandakı sabiq hərbi attaşesi Yücel Karauz söyləyib.

"Ermənistana gəldikdə, bu ölkənin heç vaxt təkbaşına hərəkət etmədiyini, tarixin müxtəlif dövrlərində, istər sovet hakimiyyəti, istər bəzi Qərb qüvvələri, istərsə də ona "dayılıq" edən digərlərinin arxasında gizləndiyni bilirik. Elə bunun nəticəsi idi ki, 1990-cı illərdə Azərbaycan torpaqlarının 20 faizi ermənilər tərəfindən işğal edildi. Çünki o dövrdə Ermənistanın milli güc mexanizmləri minimum dərəcədə idi. Elə bu səbəbdən tam əminliklə deyə bilərik ki, ermənilər Azərbaycan torpaqlarının işğalına "dayıları"nın apardığı "siyasət" nəticəsində nail olublar. Sonrakı dövrə gəlsək, burada ilk növbədə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın milli gücünün artması üçün atdığı təməlləri, bu təməllər üzərində Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasəti xüsusi vurğulamalıyıq. Bizi 2020-ci ildə qazandığımız Zəfərə daşıyan da məhz bu amillər oldu", - deyə general bildirib.

Azərbaycanın 2020-ci ilədək Qarabağ məsələsinin sülh yolu ilə həll olunması istiqamətində etdiyi çağırışları və göstərdiyi səylərin cavabsız qaldığını xatırladan müsahibimiz qeyd edib: "Məsələyə bu tərəfdən baxdıqda, Azərbaycan hakimiyyətinin son illər ordu quruculuğuna verdiyi çox böyük dəyərin nə qədər doğru olduğunu görürük. Çünki Azərbaycan dövləti xalqın böyük dəstəyinə söykənərək, heç bir ölkəyə bağlı olmadan özünün milli gücü, öz əsgəri, öz hərbi texnikası ilə işğalla yanaşı, uzun illər davam edən erməni vəhşiliyinə və vandalizminə də son qoydu. Burada xüsusi vurğulamalıyıq ki, 1992-ci ildə kənar qüvvələr tərəfindən silahlandırılan Ermənistan qarşısında haradan baxsan "əliyalın" qalan Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə bütün dünyaya öz gücünü göstərdi və Cənubi Qafqazın güc mərkəzinə çevrildi. Azərbaycanın bu qələbəsi 200 illik intiqamı aldı. Bu, Azərbaycanla yanaşı, türk dünyasının qələbəsi və haqsızlığa qarşı mübarizə aparan bütün ölkələrin ümidi oldu. Bu qələbə ilə Afrikadakı müstəmləkələr başda olmaqla, insanlar milli mənliklərini ön plana çıxarmağa başladılar. Əslində, bu Zəfər oyanışının nümunəsi oldu. Burada Azərbaycanın uzun illər xalqına, torpağına qarşı qərəzli münasibətə böyük səbrini xüsusi vurğulamaq lazımdır".

Azərbaycanın geosiyasi və geostrateji tarazlığı qoruyaraq qlobal arenada nümayiş etdirdiyi siyasi xəttin ölkəmizi Qafqazın güc mərkəzinə çevirməklə yanaşı, qlobal fəaliyyətlərdə ön plana çəkdiyi və mühüm beynəlxalq tədbirlərə evsahibliyi edən dövlətə çevirdiyini, COP29-un bunun ən böyük nümunəsi olduğunu qeyd edən general sözlərinə belə davam edib: "COP29 artıq Azərbaycanın dünyada söz sahibi olan ölkəyə çevrildiyinin böyük nümunəsidir. Bu, ölkənin apardığı düzgün siyasətin nəticəsidir. Çünki biz kor-koranə, başqalarının sözünə güvənərək dövlət "idarə edənlərin" bu gün aqibətinin, ölkələrinin istər iqtisadi, istərsə də humanitar baxımdan gəldiyi son vəziyyətin nə yerdə olduğunu açıq-aydın görürük. Başı dik dövlət idarə etmək hər kəsə nəsib olmur. Azərbaycan bu gün 300 milyonluq türk coğrafiyasının nümunəsinə çevrilib. Bu baxımdan Prezident İlham Əliyevin "Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikirləri olduqca böyük əhəmiyyət kəsb edir. Qarşıdakı dövrə baxdığımızda isə Azərbaycanın bu, qeyri-müəyyənlik içində çırpınan siyasi natarazlıqda xüsusilə türk, Qafqaz və Anadolu coğrafiyasında ön planda olacağı aşkardır".

Azərbaycan.- 2025.- 19 fevral (№37).- S.13.